


*Nizami Göydərəli*


# Vətən, sənin küləklərin, Anamın nəfəsidir mənə

## ÜRƏYİMİ YEYİRƏM

Nə külək yemirəm, nə qar yemirəm,
Mən dövlət yemirəm,
mən var yemirəm,
Ahuzar yemirəm, azar yemirəm,
Xəlvət axıdıram qəlbə göz yaşın,
Mən ürəyimi yeyirəm,
ürəyimi, qardaşım.

Bir körpənin göz yaşını görəndə,
Bir cavanın baş daşını görəndə,
Əziz dostum, bir sirdaşım öləndə-
Vəlvətcə içimə axır göz yaşım,
Mən heç nə yemirəm,
Ürəyimi yeyirəm, ürəyimi, qardaşım.

Yumruq boyda bu ürəyi,
Nə qədər yemək olar?!
Bu ürəklə nə qədər
İnsanı sevmək olar?!
Mən isə heç nə yemirəm,
Su əvəzi içirəm gözümdəki göz yaşın,
Mən ürəyimi yeyirəm,
əziz bacım, qardaşım.

Tanrı mənə bu ürəyi
yaşamağa vermişdi,
İnsan kimi daşımağa vermişdi.
Fələk bilsə şair qəlbin yemişdir,
Təcili yardım kimi qonar üstümə,
Sizlər dözməyəcək mənim tüstümə.
Tanrı qurutmayıb gözümün yaşın,
Ürəyimi yeyirəm, bacım, qardaşım.

## DÜNYA GÖZƏL DÜNYADI

Ən gözəl libası ağaca, meyvəyə verdi,
Çəmənə, çiçəyə, düzlərə verdi.
Ən gözəl rəngləri gözlərə verdi,
Ağlı, hissiyatı bizlərə verdi,
Tanrı gözəl Tanrıdı,
Dünya gözəl dünyadı.
Onları söyməyə haqqımız yoxdu,
Əgər söyürüksə, ağlımız yoxdu.
Yellənmək istəsən, külək göndərir,
Sərinlik istəsən, yağışlar yağır.
Yolunu azanda, işıq göndərir,
Düz olsan, başına var-dövlət yağır.
Yol azsan, bsaşında şimşəklər çaxır,
Tanrı gözəl Tanrıdı,
Dünya gözəl dünyadı.

## VƏTƏN

Vətən, sənin küləklərin,
Anamın nəfəsidir mənə.
Vətən, sənin çiçəklərin,
Oğlumun körpəsidir mənə.

Sürünən yarpağını görsəm,
Ürəyində dağı görsəm,
Sinən üstə yağı görsəm,
Vəhşi tək qızaram, Vətən!

Qucağında daşıyırsan,
Ürəyimdə yaşayırsan.
Sən anama oxşayırsan,
Sən evimsən, eşiyimsən,
Doğulanda beşiyimsən,
Öləndə məzarım, Vətən!
Öləndə məzarım, Vətən!

## ÖZÜM-ÖZÜMLƏ

Durnalar uçurlar uzaq ellərə,
Mənsə tək qalıram özüm-özümlə.
Səni də uçurdum yad ünvanlara,
İndi axtarıram ağlar gözümlə.

Uçurdum üstümdən külələri də,
Adladım yolları, kələkləri də,
Uçurdum üstümdən mələkləri də,
İndi tək qalıram özüm-özümlə.

Qocalıq ömrümü haqladı yaman,
Mən aşağı düşdüm, ucaldı zaman.
Gözlərimdə çiskin, başımda duman,
İndi tək qalıram özüm-özümlə.

Yaman vəfasızmış adamlar, quşlar,
Durnalar da məni apardmadılar.
Pərvanə tək başına dolandığımlar,
Şamlar da əridi, şamlar yandılar,
İndi tək qalıram özüm-özümlə.

Ölmüsən, qalmısan,
hardasan görən?!
Nə qalan bilinir, nə də ki ölən.
Hər gün əlli dəfə üzümə gülən,
Səni axtarıram ağlar gözümlə,
İndi tək qalıram özüm-özümlə.

Tənhalıq, yaşlaşmaq yaman dərd imiş,
Cavanlıq, dəlilik bundan mərd imiş.
Bu ömür, yaşayış, demə sərt imiş,
Bunları görürəm sənin gözünlə,
İndi tək qalıram özüm-özümlə.
Hər dəfə gedəndə bir dost-tanışım,
Ürəkdən ağladım, alışdım, bişdim.
Diz çöküb Tanrıya asi də düşdüm,
Saxlaya bilmədim ağlar gözümlə,
İndi tək qalıram özüm-özümlə.

Dostlar, düşünməyin heç nəyim yoxdu,
Ailəm, uşağım, qohumum çoxdu.
Hər şeyim yerində, təmənnam yoxdu,
Özümə məəttələm belə dözümlə.
Mən sizsiz qalmışam özüm-özümlə.

Şükür ki, İlahi mənə ad verib,
Ruzi, bərəkət verib, xoş həyat verib,
Gül kimi balalar verib, salamat verib,
Amma ürək verib yanar sözümlə,
Hamıya ağlayan göz verib ağlar gözümlə,
Belə ürək verib belə dözümlə,
İndi tək qalıram özüm-özümlə.

## İNSANLAR

Gəlir bu dünyaya mələklər kimi,
Sevilən insanlar, sevən insanlar.
Gedir bu dünyadan küləklər kimi,
Sevilən insanlar, sevən insanlar.

Nədir bu dünyada bu sərt qanunlar,
Bu namərd qanunlar, bu mərd qanunlar.
Bu nikbin qanunlar, bu dərd qanunlar,
Neyləsin sevilən, sevən insanlar?!

## EŞİTDİM ÖLMÜSƏN...

Eşitdim ölmüsən, sən daha yoxsan,
Sənin hüzürünə gəlirdim dünən.
Bağışla, dəfninə çata bilmədim,
Çünki, mən özüm də ölürdüm dünən.

Ölürdüm, gözəlim, sənsizliyimdən,
Tanrının bu hökmü mənə yad idi.
Barışa bilmirdim bu ayrılıqla,
Dostlarla içirdim, həyat dərd idi.

İçdiyim çevrildi gözüm yaşına,
Gözlərim qaynadı bir bulaq kimi.
Sən necə mələtdin mənim ömrümü,
Qəlbimdə ulayan yalquzaq kimi.

Belə tez ölməyə niyə tələsdin,
Ölməkçün o qədər vaxtımız var ki.
Münasib bir gündə rahat ölməyə,
Görəsən, şansımız, baxtımız var ki?!..

Bizə o cənnətdə yer olmasa da,
Cəhənnəmdə hücrəmiz, taxtımız var ki.
Səninlə cəhənnəm mənə cənnətdi.
Tez getdin, dalınca tez gələcəyəm,
Burda tez ölməyə mən tələsmirəm,
Orda qucağında tez öləcəyəm.

Sən axı ömrümün günəşi idin,
Niyə qaranlığa çəkirsən məni?
Mən ağac deyiləm bitəm, cücərəm,
O soyuq torpağa əkirsən məni.
Şirindi dünyanın, günün işığı,
Məni qaranlığa niyə çəkirsən?!

Özümü özümə verməsə ayna,
Sevdiyim bu dünya mənsizdir mənə.
Mən səni görməsəm, işıqlı dünya,
Sanki kimsəsizdir, sənsizdir mənə.

## MƏN ÖLƏNDƏ...

Mən öləndə ağlamayın,
Ürəyimi dağlamayın.
Mənə yas da saxlamayın,
Düşünün heç yoxmuşam.

Bir az bacılar hıçqırsın,
Bir az nəvələr qışqırsın,
Bir az oğlanlarım ağlamısınsın,
Mən öləndə ağlamayın.

Həyat yoldaşım ağlasın,
Başına qara bağlasın.
Mənə qırx gün yas saxlasın,
Mən öləndə ağlamayın.

Kimsə bir günahsız gəlsə yasıma,
Durub təpinməyin yazıq-yetimə.
Hörmətlə yanaşın qəbahətimə,
Mən öləndə ağlamayın.

Basdırın şairi günahlarıynan,
Çəkdiyi əzablar və ahlarıynan.
Basdırın "gülləsi", "silahlarıynan",
Mən öləndə ağlamayın.

## BU GECƏ YUXUDA...

Bu gecə qəbiristanlıq,
qatar görmüşəm,
Ölülər harasa tələsirdilər.
-Salam, ey əhli qübur,
Ey qürbətdəkilər!
Ey hökmlü məhkəmələr,
Ey can alan həkimlər,
Ey yalançı vəkillər,
Bura haqq dünyasıdır,
Burda haqqı tapdamayın.
Bura ölüb gələn yerə,
Əlinizi qapamayın.
Əlinizi çəkin burdan,
Qoyun bir az rahat yataq.
Bu qaranlıq dünyamızda,
Bar-divarlı villaları sizə verdik,
Top-tüfəngi, gülləsləri sizə verdik.
Üstümüzü qapamayın
Məqbərəylə, heykəllərə,
Qoyun bir az yağış dəysin,
Günəş axsın evimizə.
Milyon əllər uzanıbdı
Göyə sarı,
Yalvarışlar, inilti̇lər
Gedib çatmır göyə barı.
Gör necə də basabasdı,
Bu qatarlar hara gedir?
Yarısı cənnətə gedir,
Yarısı cəhənnəmə gedir.

Hövlanak oyandım qəfil yuxudan,
Dedim, sənə şükür Böyük Yaradan!
Heç kim qayıtmayıb hələ oradan.
Kaş hamı ömründə bircə dəfə də,
Cənnət, cəhənnəmi görə biləydi,
Qayıdıb bir halal insan olaydı,
Öləndə adam tək ölə biləydi.

## QOCALIQ

Gecəm-gündüzüm yoxdu,
Dəyişib hər şey tamam.
Cavanlıq nə gözəlmiş,
Qocaldın öldün, adam.

Kaş cavankən ölərdim,
Üstümdə ağlardılar.
Hələ bir başdaşıma,
Qırmızı da bağlardılar.

Baba, əyil, deyəndə,
Məcbursan, çömbəlirsən.
Balaca nəvələrin,
At-ulağı olursan.

Bəzəkli kəpənəklər,
Səni almır vecinə.
Bir söz atsan, deyəcək,
Baba, çıx get işinə.

Nə zalımsan, a dünya,
Nə zalımsan qocalıq.
Niyə cavanlığımı,
Oğurladınız məndən.

Utanmadınızmı,
Saçımdakı ağ dəndən?!
Mən isə utanıram,
Bu sevdiyim vətəndən -
Çünki əsgər ola bilmirəm
Bu sevdiyim vətəndə...


Ədalət.- 2023.- 20 oktyabr, №40.- S.7.